# Həsənqala şəhidi

**Müharibə - göz yaşı, dağılmış yurdlar, viran olmuş evlər və bu evlərin içində dünyaya göz açan bədbəxt talelər, yaralı, vaxtsız həyata vida edən insanlar, atasız qalmış uşaqlar deməkdir. Yazıqlar olsun ki, müharibəni biz başlamadıq, yurd-yuvamıza göz dikən imansız, amansız, riyakar düşmən başladı...Və müharibə zamanı minlərlə şəhidlər torpağı al qanıyla boyadı və öncə VƏTƏN dedi.**

Haqqında söz açacağımız belə şəhidlərdən biri də Qusar rayonun Həsənqala kəndində 1990-cı il sentyabrın 24-də dünyaya göz açan Orxan Qədim oğlu İsmayılovdur. Mən özüm də Həsəqala kəndinin sakini olduğum üçün Orxanın həyatı və yaşadığı qısa, mənalı ömür gözlərim qarşısında kino lenti kimi keçir. O ailəli idi, bir qız, bir oğlan övladı var. Onun oğlan övladı yenicə doğulmuşdu, körpəni və həyat yoldaşını doğum evindən çıxarıb evə gətirib və cəmi bir gecə körpənin üzünü görüb.

Orxan kəndimizdə camaatın hörmətini qazanan, hamıya qarşı mehriban və sakit davranan dəyərli vətən övladı olub. Sadə və zəhmetkeş ailənin övladı idi Orxan...Şəhid döyüşçümüz vətənə xidmət borcunu başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrində qalıb xidməti davam etdirməyi qərar verir. Orxan Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

### *Vətəni canından artıq sevənlər*

***belə qərar verirlər, çünki bu ölkədə yaşayan hamı bilir ki, biz 30 ildi müharibə fəlakəti ilə üz-üzəyik, faşist düşüncəsiylə təkmilləşmiş ermənilər, ikiüzlü ağalarının dəstəyi ilə torpaqlarımızı işğal edib, minlərlə insanın göz yaşına, şəhid qanına boyanıb torpağımız. Məhz Orxan da əziz vətənmizi candan artıq sevirdi, onun işğal alta inləməsi ilə barışa bilmirdi. Ona görə Ordu sıralarında könüllü qalmağa qərar verdi. 27 sentyabr 2020-ci ildə səhər 26 illik atəşkəsdən sonra ölkəmizin Ali Baş Komandanı cənab Prezident İlham Əliyevin televiziya kanallarından xalqa müraciəti yayıldı.***



Dönə-dönə atəşkəsi pozan yağı düşmən bütün təmas xətt boyu qəfildən hücuma keçib və Ali Baş Komandan mühraribənin başlamasına əmir verdi, əslində bu qərarı bütün Azərbaycan əhli gözləyirdi, çünki düşmən tapdağı altında qalan torpaqların işğalına nə qədər dözmək olardı, çox sayda insanlarımız bu niskillə dünyasını dəyişdi. Əlqərəz mənfur düşmənin cavabı verilməli idi və verildi də! Həsənqalanın şəhid oğlu, Azərbaycan Ordusunun kiçik çavuşu olan Orxan İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşa gedənlərin ön sırasında oldu.

### *Müharibədə daima öndə gedənlər*

ya qazi, ya şəhid olurlar. Kəndimizin qüruru Orxan İsmayılovun taleyinə şəhidlik yazıldı və oktyabrın 1-də şəhid oldu.

O, Qusar rayonun Həsənqala kənd qəbirstanlığında dünyadan köçmüş əziz insanlarının yanında dəfn olundu. Onun unudulmaz xatirəsi, nəinki Həsənqala camaatının, bütün Azərbaycan xalqının qəlbində yaşayacaqdır. Şəhidimizin Haqq dərgahında məqamı ucadır, nahaq yerə demirlər ki, Şəhidlər ölməz, Vətən bölünməz...Orxan Qədim oğlu İsmayılov igidlik məktəbinin layiqli oğullarından biri oldu, o özündən sonraya gözü yaşlı, ürəyi dağlı ana-ata, gənc yaşında dul qalmış şəhid həyat yoldaşı, iki fidan bala qoydu, bir qız, bir oğlan...Yəqin ki, oğlu Yaradan Orxanın yeri boş qalmamaq üçün göndərib. Allah bu iki balanın gələcəyini bəxtiyar etsin, başı bəlalı Vətənə, yurda layiqli övladlar olsun, İnşallah...

Şəhidimizin evinin küçə qapısının girəcəyində Azərbaycan bayrağı dalğalanır, qoy bu dalğalanan müqəddəs bayrağımız şəhid övladlarına xoşbəxtlik bəxş etsin, özləri ata itgisi ilə böyüyəcəklər, onların balaları ata kölgəsində boy atsınlar, Allah düşmən məkrini üstümüzdən dəf etsin.

**Dövlətimizin başında duran cənab Prezidentimiz, Orxan Qədim oğlu İsmayılovu diqqətdən kənarda qoymayıb. Şəhidmiz ölmündən sonra dövlət tərəfindən təltif olunanlar sırasındadır. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ordumuzun kiçik çavuşu Orxan İsmayılov ölümündən sonra ”Vətən uğrunda” medalı ilə təltif edilib. Allah bütün şəhidlərimizin məqamını uca etsin. Şəhidimizin ailəsinə başsağlığı verir və onlara səbir, dözüm diləyirəm. Başını dik tut ata-ana, sizin övladınız şəhidlik məqamına ucalıb. Hər kəs o məqamı fəth edə bilməz! Yaralı Vətənmizin torpağına öz qanlarını çiləyən şəhidlərimizə Allahın rəhməti olsun! Vətənmizin başı üstündən qara buludlar həmişəlik dəf olsun! Amin...**

**Ceyhun Ağabəyov**
**AYB-nin üzvü**
**Qusar, Həsənqala**